**Təsdiq edirəm:**
Biznes mühiti və beynəlxalq
reytinqlər üzrə Komissiyanın sədri,
Azərbaycan Respublikası Baş nazirinin
birinci müavini Yaqub Eyyubov

________________

30.01.2023-cü il

**Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Beynəlxalq sazişlər" işçi qrupunun 2023-cü il üçün Fəaliyyət Planı**

| Sıra №-si | İndikatorlar | Mövcud vəziyyət | Metodologiya | Görüləcək tədbirlər | Son icra müddəti | İcraçı qurumlar | Məsul şəxslər (əlaqələndi-ricilər) |
|---|---|---|---|---|---|---|---|
| **"Henley Passport Index"** | | | | | | | |
| **1. Ümumvətəndaş pasportları ilə vizasız gediş-gəliş rejimi** | | | | | | | |
| 1.1. | Azərbaycan Respublikasının ümumvətəndaş pasportuna malik olan şəxsin vizasız səfər edə biləcəyi ölkələrin sayı | 74-cü yer (69 ölkəyə vizasız, hava limanında və ya elektron viza almaqla səfər etmək olar) | 199 ölkənin pasportu üzrə 227 səfər nöqtəsinə vizalı və ya vizasız, o cümlədən hava limanında və ya elektron viza almaqla səfər etmə imkanı. Hər bir səfər nöqtəsi 1 say hesab olunur və göstərici səfər nöqtələrinin ümumi sayı əsasında müəyyən edilir. | Azərbaycan Respublikasının siyasi, iqtisadi, mədəni, turizm və digər sahələr üzrə maraqları nəzərə alınaraq, ümumvətəndaş pasportuna malik şəxslər üçün qarşılıqlı vizasız gediş-gəliş rejiminin tətbiqi ilə bağlı danışıqlara başlanılması məqsədilə Azərbaycan Respublikasının diplomatik nümayəndəlik və konsulluqlarından zəruri məlumatlar toplanılmaqla xarici ölkələrin siyahısının müəyyən edilməsi (Aİ və digər mümkün çoxtərəfli təsisatlar daxil olmaqla) və Komissiyaya təqdim olunması | 01.04.2023 | Xarici İşlər Nazirliyi, Daxili İşlər Nazirliyi, İqtisadiyyat Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti, Xarici Kəşfiyyat Xidməti, Dövlət Sərhəd Xidməti, Dövlət Miqrasiya Xidməti, Dövlət Turizm Agentliyi, Ədliyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi | Emil Səfərov, Elçin Qəmbərli, Paşa Ziyadov, Azad Qasımov, Məntiq Şərifov, Teymur Əhmədov, Kəyan Hacıyev, Məhəmməd Muradov |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 1.2. | Xarici ölkələrin səyahət sənədlərinin təhlükəsizliyinin dərəcəsi | Mövcud vəziyyət xarici ölkələr tərəfindən təqdim olunan faktiki məlumatlar əsasında müəyyən edilir. | Beynəlxalq Mülki Aviasiya Təşkilatının 9303 nömrəli sənədində əks olunmuş, o cümlədən digər beynəlxalq təşkilat və qurumlar tərəfindən tətbiq olunan təhlükəsizlik standartları. | Bu Fəaliyyət Planının 1.1-ci bəndində qeyd olunan siyahıya daxil edilmiş xarici ölkələrin ümumvətəndaş pasportlarının təhlükəsizlik parametrlərinin və onların tətbiqi sahəsində təcrübənin öyrənilməsi, mümkün sui-istifadə halları barədə məlumatların toplanılaraq ümumiləşdirilmiş formada Komissiyaya təqdim edilməsi | 01.05.2023 | Xarici İşlər Nazirliyi, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti, Xarici Kəşfiyyat Xidməti, Dövlət Sərhəd Xidməti, Dövlət Miqrasiya Xidməti | Emil Səfərov, Elçin Qəmbərli, Paşa Ziyadov, Azad Qasımov, Məntiq Şərifov, Kəyan Hacıyev |
| 1.3. | Azərbaycan Respublikasının siyasi, iqtisadi, mədəni, turizm və digər sahələr üzrə maraqları<br>Xarici ölkənin səyahət sənədinin təhlükəsizliyi<br>Qarşılıqlı vizasız gediş-gəliş rejiminin müəyyən edilməsi ilə bağlı xarici ölkənin mövqeyi | - | - | 1. Bu Fəaliyyət Planının 1.1-ci bəndində qeyd olunan siyahı üzrə mərhələli şəkildə diplomatik kanallar vasitəsilə danışıqlara başlanılması üçün ölkələrin kateqoriyalar üzrə bölgüsünün aparılması və bu barədə məlumatın Komissiyaya təqdim olunması | 01.06.2023 | Xarici İşlər Nazirliyi, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti, Xarici Kəşfiyyat Xidməti, Dövlət Sərhəd Xidməti, Dövlət Miqrasiya Xidməti, Dövlət Turizm Agentliyi | Emil Səfərov, Elçin Qəmbərli, Paşa Ziyadov, Azad Qasımov, Məntiq Şərifov, Kəyan Hacıyev |
| | | | | 2. Bu Fəaliyyət Planının 1.1-ci bəndində qeyd olunan siyahı üzrə mərhələli şəkildə diplomatik kanallar vasitəsilə danışıqlar aparılması və nəticələri barədə məlumatların Komissiyaya təqdim olunması | Danışıqlar aparılması (iyun-dekabr 2023)<br>Məlumatların təqdim olunması (rüblər üzrə) | Xarici İşlər Nazirliyi | Emil Səfərov |
| **2. Diplomatik və xidməti pasportlarla vizasız gediş-gəliş rejimi** | | | | | | | |
| 2.1. | Azərbaycan Respublikasının diplomatik və ya xidməti pasportuna malik olan şəxsin vizasız səfər edə biləcəyi ölkələrin sayı | Diplomatik pasport sahibləri 67, xidməti pasport sahibləri 47 ölkəyə vizasız səfər edə bilir. | Hər bir ölkə 1 say hesab olunur və göstərici ölkələrin ümumi sayı əsasında müəyyən edilir. | Ölkəmizin maraqları nəzərə alınaraq, diplomatik və xidməti pasportlara malik şəxslər üçün qarşılıqlı vizasız gediş-gəliş rejiminin tətbiqi ilə bağlı danışıqlara başlanılması məqsədilə Azərbaycanın diplomatik nümayəndəlik və konsulluqlarından zəruri məlumatlar toplanılmaqla xarici ölkələrin siyahısının müəyyən edilməsi (Aİ və digər mümkün çoxtərəfli təsisatlar daxil olmaqla) və Komissiyaya təqdim olunması | 01.04.2023 | Xarici İşlər Nazirliyi, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti, Xarici Kəşfiyyat Xidməti, Dövlət Sərhəd Xidməti, Dövlət Miqrasiya Xidməti, Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Turizm Agentliyi | Emil Səfərov, Elçin Qəmbərli, Paşa Ziyadov, Azad Qasımov |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 2.2. | Xarici ölkənin səyahət sənədinin təhlükəsizliyi<br><br>Diplomatik və ya xidməti pasportlar üzrə qarşılıqlı vizasız gediş-gəliş rejiminin müəyyən edilməsi ilə bağlı xarici ölkənin mövqeyi | - | - | 1. Bu Fəaliyyət Planının 2.1-ci bəndində qeyd olunan siyahıya daxil edilmiş xarici ölkələrin diplomatik və xidməti pasportlarının təhlükəsizlik parametrlərinin və onların tətbiqi sahəsində təcrübənin öyrənilməsi (hansı hallarda və hansı kateqoriya şəxslərə verilməsi, müvafiq pasportlara sahib olan şəxslərin təxmini sayı), mümkün sui-istifadə halları barədə məlumatların toplanılaraq ümumiləşdirilmiş formada Komissiyaya təqdim edilməsi | 01.05.2023 | Xarici İşlər Nazirliyi,<br>Daxili İşlər Nazirliyi,<br>Dövlət Təhlükəsizliyi Xidməti,<br>Xarici Kəşfiyyat Xidməti,<br>Dövlət Sərhəd Xidməti,<br>Dövlət Miqrasiya Xidməti | Emil Səfərov,<br>Elçin Qəmbərli,<br>Paşa Ziyadov,<br>Azad Qasımov |
| | | | | 2. Bu Fəaliyyət Planının 2.1-ci bəndində qeyd olunan siyahı üzrə mərhələli şəkildə diplomatik kanallar vasitəsilə danışıqlar aparılması və nəticələri barədə məlumatların Komissiyaya təqdim olunması | Danışıqlar aparılması (may-dekabr 2023)<br><br>Məlumatların təqdim olunması (rüblər üzrə) | Xarici İşlər Nazirliyi | Emil Səfərov |
| **3. Şəxsiyyət vəsiqəsi əsasında gediş-gəliş rejimi** | | | | | | | |
| 3.1. | Azərbaycan Respublikasının şəxsiyyət vəsiqəsinə malik olan şəxsin vizasız səfər edə biləcəyi ölkələrin sayı | Azərbaycan Respublikası vətəndaşları 1 ölkəyə şəxsiyyət vəsiqəsi əsasında vizasız səfər edə bilir. | Hər bir ölkə 1 say hesab olunur və göstərici ölkələrin ümumi sayı əsasında müəyyən edilir. | Vətəndaşların şəxsiyyət vəsiqəsi əsasında gediş-gəliş rejimi ilə bağlı Azərbaycan Respublikasının strateji əməkdaşlıq və dostluq münasibətləri olan xarici ölkələrlə danışıqlar aparılması üçün həmin ölkələrin siyahısının müəyyən edilməsi və Komissiyaya təqdim olunması | 01.04.2023 | Xarici İşlər Nazirliyi,<br>Daxili İşlər Nazirliyi,<br>Dövlət Təhlükəsizliyi Xidməti, Xarici Kəşfiyyat Xidməti, Dövlət Sərhəd Xidməti, Dövlət Miqrasiya Xidməti, Dövlət Gömrük Komitəsi, Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Dövlət Turizm Agentliyi | Emil Səfərov,<br>Elçin Qəmbərli,<br>Paşa Ziyadov,<br>Azad Qasımov,<br>Məntiq Şərifov,<br>Kəyan Hacıyev,<br>Vüqar Həmidli |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 3.2. | Xarici ölkənin şəxsiyyət vəsiqəsinin təhlükəsizliyi<br><br>Şəxsiyyət vəsiqəsi əsasında qarşılıqlı vizasız gediş-gəliş rejiminin müəyyən edilməsi ilə bağlı xarici ölkənin mövqeyi | | | 1. Bu Fəaliyyət Planının 3.1-ci bəndində qeyd olunan siyahıya daxil edilmiş xarici ölkələrin şəxsiyyət vəsiqələrinin təhlükəsizlik parametrlərinin və onların tətbiqi sahəsində təcrübənin öyrənilməsi, mümkün sui-istifadə halları barədə məlumatların toplanılması və əldə olunmuş nəticələrin Azərbaycan Respublikasının tələblərinə uyğunluğunun müəyyən edilməsi | 01.05.2023 | Daxili İşlər Nazirliyi, Xarici İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti, Xarici Kəşfiyyat Xidməti | Emil Səfərov, Məntiq Şərifov, Elçin Qəmbərli, Paşa Ziyadov |
| | | | | 2. Bu Fəaliyyət Planının 3.1-ci bəndində qeyd olunan siyahı üzrə mərhələli şəkildə diplomatik kanallar vasitəsilə danışıqlar aparılması və nəticələri barədə məlumatların Komissiyaya təqdim olunması | Danışıqlar aparılması (may-dekabr 2023)<br>Məlumatların təqdim olunması (rüblər üzrə) | Xarici İşlər Nazirliyi | Emil Səfərov |
| **4. Viza rejiminin qarşılıqlı olaraq sadələşdirilməsi** | | | | | | | |
| 4.1. | Azərbaycan Respublikasının pasportuna malik olan şəxslər üçün hava limanında viza almaq imkanı yaradan ölkələrin sayı | 33 xarici ölkə Azərbaycan Respublikasının pasportuna malik olan şəxslər üçün hava limanında viza almaq imkanı yaradıb. | Hər bir ölkə 1 say hesab olunur və göstərici ölkələrin ümumi sayı əsasında müəyyən edilir. | 1. Ölkəmizin siyasi, iqtisadi, mədəni, turizm və digər sahələr üzrə maraqları nəzərə alınaraq, viza rejiminin qarşılıqlı olaraq sadələşdirilməsi (beynəlxalq hava limanlarında və elektron viza) imkanlarına baxılması, belə ölkələrin siyahısının müəyyən edilməsi və Komissiyaya təqdim olunması | 01.04.2023 | Xarici İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti, Xarici Kəşfiyyat Xidməti, Daxili İşlər Nazirliyi, Dövlət Sərhəd Xidməti, Dövlət Miqrasiya Xidməti, Dövlət Gömrük Komitəsi, Dövlət Turizm Agentliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | Emil Səfərov, Elçin Qəmbərli, Paşa Ziyadov, Azad Qasımov, Məntiq Şərifov, Teymur Əhmədov, Kəyan Hacıyev, Məhəmməd Muradov |
| | | | | 2. Bu Fəaliyyət Planının 4.1-ci bəndinin 1-ci hissəsində qeyd olunan siyahı üzrə Azərbaycan Respublikasının diplomatik nümayəndəlik və konsulluqlarından zəruri məlumatlar toplanılmaqla mərhələli şəkildə diplomatik kanallar vasitəsilə danışıqlar aparılması və nəticələri barədə məlumatların Komissiyaya təqdim olunması | Danışıqlar aparılması (aprel-dekabr 2023)<br>Məlumatların təqdim olunması (rüblər üzrə) | Xarici İşlər Nazirliyi | Emil Səfərov |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 4.2. | Azərbaycan Respublikasının pasportuna malik olan şəxslər üçün elektron viza almaq imkanı yaradan ölkələrin sayı | 26 xarici ölkə Azərbaycan Respublikasının pasportuna malik olan şəxslər üçün elektron viza almaq imkanı yaradıb. *(Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasının təxmini statistikası)* | Hər bir ölkə 1 say hesab olunur və göstərici ölkələrin ümumi sayı əsasında müəyyən edilir. | 1. Azərbaycan Respublikasının pasportuna malik olan şəxslər üçün elektron viza almaq imkanı yaradan xarici ölkələrin dəqiqləşdirilməsi, müfəssəl siyahının müəyyən edilməsi və Komissiyaya təqdim olunması | 01.04.2023 | Xarici İşlər Nazirliyi | Emil Səfərov |
| | | | | 2. Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında və “ASAN Viza” portalı vasitəsilə vətəndaşlarına elektron viza verilən xarici ölkələr tərəfindən qarşılıqlı olaraq Azərbaycan Respublikasının vətəndaşlarına münasibətdə də eyni prosedurların tətbiq edilməsi imkanlarına baxılması üçün diplomatik kanallar vasitəsilə onlara müvafiq sorğuların göndərilməsi | 01.05.2023 | | |
| **5. Vizasız gediş-gəliş rejimi barədə məlumatların toplanması** | | | | | | | |
| 5.1. | - | | | Azərbaycan Respublikasının vətəndaşlarına münasibətdə birtərəfli qaydada vizasız gediş-gəliş rejimini tətbiq edən ölkələrin siyahısının, o cümlədən tətbiq olunan rejim barədə məlumatların diplomatik nümayəndəlik və konsulluqlardan toplanılması və işçi qrupunun üzvü olan dövlət qurumlarına təqdim edilməsi, eləcə də açıq məlumat mənbələri vasitəsilə ictimaiyyətə çatdırılması | 01.05.2023 | Xarici İşlər Nazirliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | Emil Səfərov |
| **6. Risk qrupuna aid ölkələrin müəyyən edilməsi** | | | | | | | |
| 6.1. | Bu Fəaliyyət Planının 1.2., 2.2., 3.2-ci bəndləri və qanunsuz miqrasiyanı müəyyən edən indikatorlar üzrə | | | Milli təhlükəsizlik və ictimai asayişin mühafizəsi, Azərbaycan Respublikası vətəndaşlarının və digər şəxslərin hüquqlarının və qanuni mənafelərinin qorunması, o cümlədən qanunsuz miqrasiyaya qarşı mübarizə çərçivəsində risk qrupuna aid ölkələrin siyahısının müəyyən edilərək Komissiyaya | 01.05.2023 | Xarici İşlər Nazirliyi, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti, Xarici Kəşfiyyat Xidməti, Dövlət Sərhəd Xidməti, Dövlət Miqrasiya Xidməti, Dövlət Gömrük Komitəsi | Emil Səfərov, Elçin Qəmbərli, Paşa Ziyadov, Azad Qasımov, Məntiq Şərifov, Kəyan Hacıyev, Vasif Qurbanov |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | məlumat verilməsi və fəaliyyət planının icrası zamanı nəzərə alınması | | | |
| **7. Azərbaycan Respublikası vətəndaşlarının turizm məqsədli səfərləri** | | | | | |
| 7.1. | - | Azərbaycan Respublikası vətəndaşlarının turizm məqsədilə səfər etdikləri əsas xarici ölkələrin siyahısının və vətəndaşlarımızın getmə turizm göstəricisinin müəyyən edilməsi, müvafiq təhlil və əsaslandırmaların hazırlanması və danışıqlar aparılması zamanı nəzərə alınması | 01.05.2023 | Dövlət Turizm Agentliyi, Xarici İşlər Nazirliyi, Dövlət Sərhəd Xidməti | Məhəmməd Muradov |
| 7.2. | - | Turizm məqsədilə xarici ölkələrə səfər edən Azərbaycan Respublikası vətəndaşlarının səfərin təşkili ilə bağlı üzləşdikləri əsas çətinliklərin müəyyən edilməsi və onların həlli istiqamətində zəruri tədbirlərin görülməsi | 01.05.2023 | Xarici İşlər Nazirliyi, Dövlət Turizm Agentliyi | Emil Səfərov, Məhəmməd Muradov |
| **8. Xüsusi (ad hoc) platformaların yaradılması və təbliğat-təşviqat məsələləri** | | | | | |
| 8.1. | - | Bu Fəaliyyət Planının predmetinə aid olan məsələlərin müzakirəsinin və icra mexanizminin təmin olunması məqsədilə xüsusi *(ad hoc)* platformaların yaradılması və zərurət yaranacağı təqdirdə Azərbaycan Respublikasının maraqlarından irəli gələrək sözügedən məsələlərin müvafiq hökumətlərarası komissiyalar, dostluq və işçi qrupları və ya digər mövcud formatlar çərçivəsində təşviqi | Mütəmadi | Xarici İşlər Nazirliyi, digər aidiyyəti mərkəzi icra hakimiyyəti orqanları | Emil Səfərov |
| **9. Müvafiq sahə üzrə xarici ölkələrin təcrübəsinin öyrənilməsi** | | | | | |
| 9.1. | - | Xarici ölkələrin müvafiq sahə üzrə təcrübəsinin öyrənilməsi və nəticələri üzrə təkliflərin hazırlanaraq Komissiyaya təqdim olunması | 01.06.2023 | Xarici İşlər Nazirliyi, Dövlət Turizm Agentliyi | Emil Səfərov, Məhəmməd Muradov |